*TƏLİM-TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI*

**UOT:37.**

# TƏHSILIMIZIN SABAHINI DÜŞÜNƏN ULU ÖNDƏR HEYDƏR ƏLIYEV

***T.ü.f.d. Həmzəyeva Nurlana Qərib qızı, Məmmədova Sevda Nəsib qızı***
***Gəncə Dövlət Universiteti***
***hemzeyeva_nurlana@mail.ru***

**Xülasə:** *Təhsilimizin sabahını düşünərkən bugünkü reallıqlar tam əminliklə deməyə imkan verir ki,bilavasitə dövlətimizin başçısı Heydər Əliyevin rəhbərliyi ilə təhsil sahəsində həyata keçirilən köklü islahatların məqsədi təkcə hərtərəfli biliyə və savada malik insanlar yetirmək yox, həm də müstəqil,demokratik,açıq cəmiyyət quruculuğu işində,fəal iştirak edən,Azərbaycanın dünya birliyinə inteqrasiyasını daha da dərinləşdirməyə kömək edən əsl vətəndaşlar, şəxsiyyətlər tərbiyə etməkdir. Çünki adi vətəndaşlardan tutmuş prezdentlərədək hamı təhsil ocağının məhsuludur.*

**Açar sözlər:** ağıl və intellekt, təhsil əsri, "Azərbaycan tarixi" dərslikləri, təhsil strategiyası, tarix, zaman, kadr hazrlığı, ilk orta və ali hərbi sistem

**Ключевые слова:** мудрость и интеллект, возраст образования, учебники «История Азербайджана», стратегия образования, история, время, кадры, первая средняя и высшая военная система

**Key Words:** Wisdom and Intelligence, Education Age, "History of Azerbaijan" textbooks, education strategy, history, time, cadres, first middle and upper military system

XXI əsrin özünəməxsus xüsusiyyətlərindən artıq dünya güc, qüvvə tətbiq etməklə deyil, ağıl və intellektlə idarə ediləcək. Hər bir dövlətin qüdrəti onun cəbbəxanasındakı silah potensialı ilə ölçülməyəcək. Gücün, qüdrətin yeganə meyarı elm, bilik, təhsilin səviyyəsi hesab olunacaq. Məhz buna görə də Birləşmiş Millətlər Təşkilatı XXI yüzilliyi ``Təhsil əsri`` elan etmiş, biliyi, ağlı, idrak və intellekti ön plana çəkmişdir.

Azərbaycan gerçəkliyinə gəlincə təhsil dünyada baş verən qlobal dəyişikliklərlə, qabaqcıl ölkələrin təhsil sahəsindəki mütərəqqi təcrübəsinin öyrənilib mənimsənilməsi ilə paralel inkişaf edir, milli dövlətçiliyimizin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi kimi şərəfli bir işin keşiyində durub. Dövlət təhsil starategiyasına uyğunlaşdırmış, vahid mərkəzdən planlı şəkildə həyata keçirmək üçün şərait yaratmışdır. Bu gün iftixarla demək olar ki, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin yorulmaz və ardıcıl səyləri, tükənməz dühası və enerjisi sayəsində keçid dövrünün problem və çətinliklərinə baxmayaraq təhsilimizin inkişfaına nəinki dövlət təminatı verilmiş, hətta milli inkişafımızın öncül istiqaməti kimi səciyyələndirilmişdir.[1,26]

XX əsrin 70-ci illərindən etibarən quruculuq missiyasını cəsarətlə öz üzərinə götürən böyük tarixi şəxsiyyət Heydər Əliyev uzaqörən və müdrik siyasəti nəticəsində güclü kadr potensial yaratmaqla milli təhsil quruculuğu istiqamətində sonrakı uğurların bünövrəsini qoymuşdur. O, özünün bütün şüurlu həyatı boyu istər əməli, istərsə də şəxsi nümunəsi sübut etməyə çalışmışdır ki, maarif və mədəniyyətimizin, elm və təhsilimizin yorulmaz fədaisi, təşəbbüskeş himayəçisidir. Digər sahələrdə olduğu kimi, Azərbaycanın təhsil sisteminin son 30 illik inkişafı tarixində əldə etdiyi nailiyyətlər, qazandığı uğurlar, müxtəlif mərhələlərdə, xüsusən 80-ci illərdə və müstəqillik dövründə aparılan təhsil islahatlarının hazırlanması və həyata keçirilməsi Heydər Əliyevin böyük və əvəzsiz xidmətlərinin bəhrəsidir. 70-80-i illərdə

respublikada iqtisadiyyat tərəqqi etdikcə, xalqın sosial rifahı yaxşılaşdıqca, təhsilin səviyyəsi də durmadan yüksəlirdi. [2,7]Azərbaycan bir sıra ali məktəblərinin şöhrəri keçmiş SSRİ hüdudlarından çox-çox uzaqlarda yayılmışdı. Bəzi ali məktəblərimiz Avropa, Asiya, Afrika, Latın Amerikası qitəsindən olan bir çox ölkələr üçün yüksək ixtsaslı kadrlar hazırlayırdı.həmin dövrdə respublikaya rəhbərlik edən Heydər Əliyevin təşəbbüsü ilə ali məktəblərə qəbul zamanı yol verilən mənfi halların-rüşvətxotluğun, qohumbazlığın, proteksiyanın kökünü kəsmək istiqamətində barışmaz mübarizə aparılır, ali məktəblərə qəbul zamanı bilik əsas meyar kimi götürülürdü. Hər il yüzlərlə gənc ali təhsil almaq üçün SSRİ-nin ən nüfuzlu, ən mötəbər universitetlərinə göndəriş alırdı. Bir sözlə, təhsilin səviyyəsinə, savadsızlığın ləğv edilməsinə görə Azərbaycan nəinki bütün başqa müsəlman ölkələrini, hətta bir çox Avropa dövlətlərini xeyli qabaqlamışdı.

Buradaca o illərin mənzərəsini əks etdirən bəzi faktlara və rəqəmlərə müaciət etmək yerinə düşərdi: 1970-1980-ci illərdə Heydır Əliyevin təşəbbüsü ilə respublikadan kınarda keçmiş Sovet İttifaqının 50-dən çox böyük şəhərinin 170-dən çox böyük şəhərinin ən məşhur ali məktəbində ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gənc təhsil almış, onlar yüksək ixtisaslı mütəxəssislər kim hazırda ölkəmizdə və onun hüdudlarından kənarda çalışmaqdadırlar. Müqayisə üçün deyək ki, 1970-ci ildə başqa şəhərlərin ali məktəblərinə 60 nəfər tələbə göndərilmişdisə, cəmi 5 il sonra , 1975-ci ildə 674 nəfər, yəni 11 dəfədən çox tələbə göndərilmişdi. Zaman arasındakı fasiləsiz əlaqə, yəni keçmişin,bu günün və sabahın qırılmaz tellərlə bir-birinə bağlı olması nə qədər təzadlı səslənsə dəŞ heç vaxt təkistiqamətli daşımayıb. Düzdür,zamanı geriyə döndərmək mümkün deyil, lakin gələcəyin yolu bu gündən keçdiyi kimi,bu gün də keçmişin davamıdır.[3,30]

Təməli hələ XIX əsrin sonlarında “Realnı”, ”Üsuli-cədid” məktəbləri ilə qoyulmuş müasir təhsil sistemi sonrakı illərdə daha da inkişaf etdirilərək gəlib müasir səviyyəyə çatmışdır. Əgər 70-80-ci illərdə yaranmış zəngin təhsil ənənələri olmasaydı, bu gün ən qabaqcıl ölkələrdəki təhsil sisdemləri ilə rəqabətə girə bıləcək səviyyədə təhsilədə malik ola bilməzdik. Bu uğurlar isə 30 ildən çox Azərbaycana rəhbərlik edən və bu gün də xalqımızı öz arxasıyca aparan mahir siyasətçi, uzaqgörən lider Heydər Əliyevin müstəsna xidmətlərinin nəticəsidir. Onun rəhbərliyi altında keçən 30 ildən artıq bir dövr Azərbaycanın qədim və zəngin tarixinin ən şərəfli səhifələrindən bütöv bir epoxadır-tariximizin Heydər Əliyev epoxası.

Tarix, zaman daim insanları sınağa çəkir, bərkə-boşa salır. Heydər Əliyevin yüksək dövlət vəzifələrindən müvəqqəti uzaqlaşdırılması onun başladığı uzun illər boyu həyata keçirdiyi quruculuq işlərinin dayanması ilə nəticələndi.Azərbaycan ikincidəfə müstəqillik qazandıqda təbii olaraq meydana çıxan çətinliklər həyatın bütn sahələrində olduğu kimi, təhsilədə öz mənfi təsirini göstərməyə bilməzdi. 80-cı illərin sonu, 90-cı illərin əvvəllərində republikada həyat bir növ donmuşdu. Bu bir tərəfdən yaranmış tarixi situasiya ilə bağlıydısa, digər tərəfdən ölkəni idarə eden insanların mövcud şəraitindən baş çıxara bilməyib çaşaraq qalmalrının, səriştəsizlik və təcrübəsizliyinin nəticəsi idi. Illər boyu ağr və yorğun zəhmət bahasına əldə olmuş nailiyyətlər, milli-mənəvi dəyərlər bir göz qırpımında tarmar oldu. Cəmiyyətdə elmə, təhsilə maraq azaldı. Millilik pərdəsi altında tələmtələsik həyata keçirilən düşünülməmiş tədbirlər işə xeyir vermək əvəzinə, ziyan vurdu. Mədəniyyətimizi, təhsilimizi ayaqüsdə saxlayan ümum bəşəri, dünyəvi dayaqlar sındırıldı. Cəmiyyət dünyada gedən mütərəqqi proseslərdən təcrid edilərək tənəzzülə yuvarlandı.

Ən dəhşətlisi isə o idi ki, həmin üzdniraq rəhbərlər dialektik qanunların ziddinə olaraq savadsızlıqları üzündən gələcəyi deyil keçmişi idealizə edir, tarixin təkərini geri itəlməyə çalışırdılar. Onların “Donkixotluğu”ona gətirib çıxardıki, təhsil öz vətənini, millətini sevən

vətənpərvərlər tərbiyə etmək kimi ümumilli missiyasından məhrum edildi. Bu anlayışı Azərbaycan tarixini 1993-1994 cü illərə şamil etmək yerınə düşərdi.Cəmiyyti dərinləşən tənəzzüldən şixarmağ üçüc tale dövlətin idarə etmə sükanını Heydər Əliyevə qismət etdi. Bakı da cəmiyyət həyatının bütün sahələrində gerilmə, tənəzzül prosesi getdiyi bir vaxtda Naxçıvan Muxtar Respublikasında rəhbəri cenab Heydər Əliyev milli kadr hazırlığına, elmə, təhsilə yaranmış yeni tarixin şəraiti prizmasından baxrdı. Çünki o böyük uzaqgörənliliklə, ”Yeni iqtisadi-siyasi sisdem, yeni quruluş özünə uyğun kadr tələb edir”. 1992-ci ilin martnda Naxçıvan MR ilə Türkiyyə Cumhuriyyəti ilə arasında bağlanmış əməkdaşliq pratakoluna görə, o 100 nəfər naxçıvanlı gəncin Turkiyə ali məktəblərində oxumağa göndərilməsinə razılıq ala bilmişdi. Heydər Əliyevin yenidən qayıdışı XX əsrin sonunda öz xilaskarlıq missiyasini yerinə yetirməsi ölkəmizi böhran və depresiyalar girdabına yuvarlanmaqdan xilas etdi ölkədə həyat öz məcrasına düşdü. İctimai-siyasi sabitlik bərpa olundu. Elmin mədəniyyətin təsiri inkişafı intensiv xarakter almağa başladı. Diqqətlə araşdıranda məlum olurdukı qüvvətli dövlət quruculuğunun ana yolu təhsildən keçir. Təhsili milli tərəqqinin aparıcı amilinə çevirmək üçün bu sahədə əsasali və geniş miqyaslı islihatlara eytiyac duyulurdu. 1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycan təhsili vahid strategiya, kankret dövlət praqramı əsasında aparılır. Azərbaycan prezdentini sərəncam və gösdərişlərinə müvafiq olaraq hazrlanmış ”Təhsil sayəsində islahatın dövlət praqrami” həm məzmun,həm də formaca daha mükəmməl və mütərəqqi təhsil sisdemi yaratmaq yolunda yeni addımdır. Təhsil möhtəşəm bir saraydısa, onun özünün, dayağı orta məktəb təhsilidir. Prezdent Heydər Əliyevin təbirincə desək “Bütün təhsil sisdemində orta məktəb mühüm yer tutur”. Azərbaycan Konustutisiyasi hər bir vətəndaşa icbariorta təhsil hüququ verir. Şagirdlərin dərsliklərlə mərhələ mərhələ dövlət təminatına keçməsi barədə qərar çıxarılıb.

Ümumi orta təhsil məktəblərində oxuyan isdedadli uşaqlarin aşkara çıxarılması və onlara dövlət qayğısının gösdərilməsi, vətəndaşlarımızın konustutisiyada təsbid edilmiş hüquqlarının tərkib hissəsidir.

Yeni təhsil islahatı praqramında xüsusi ilə isdedalı uşaqların təhsilinə geniş imkanlar yaradan yeni tipli təhsil müəsisələrnin yaradılması başlıca məqsəd kimi qoyulmuşdur. “Azərbaycanda genc isdedadlara düvlət qayğısı haqqında” Prezdent fərmanı,həmin fərmana uyğun olaraq Azərbaycanın gənc isdedadlarının “Qızıl Kitabı” n yaradılması, prezdentin xüsusi təqaüdünün təsis edilməsi təhsilimizin sabahsına verilen qiymətin ən bariz ifadəsidir.

Qəhrəmanlıqla dolu keçmişimizi gənc nəslə obyektiv və dolğun şəkildə çatdırmaq, doğma dilimizi onlara sevdirmək və onu yaşatmaq barədə müəllimlərə, təhsil işçilərinə verdiyi dəyərli məsləhətlər bu böyük insanın ta qədimdən üzübəri gələn milli adət və ənənələrimizə, tarixi keçmişimizə, dilimizə, mədəniyyətimizə sədaəqəti həmin sədaqəti özündön sonra gələn nəsillərə estafet kimi ötürmək amalını şərtləndirən mühüm amildir. 2000-2001-ci dərs ilinin başlanması münasibətilə Bakıdakı 82 saylı məktəbdə Azərbaycan tarixinə və Azərbaycan dilinə dair dərsliklərlə tanış olarkən onun dediyi sözləri yada salaraq.[4,15] Heydər Əliyev həmin fənlərin gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasında müstəsna əhəmiyyətini vurğulayaraq demişdir: Müstəqil Azərbaycanın hər bir gənci məktəbdə təhsil alaraq öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşıı bilsin. Əgər bunu bilməsə, o, millətəni qiymətləndirə bilməz. Əgər bunu bilməsə, öz millətinə olan mənsubiyyəti ilə isdənilən səviyyədə fəxr edə bilməz. Ancaq təkcə tarix deyil bizim zəngin ədəbiyyatımızda var. Biz dilimizlə fəxr etməliyik. Dil hər bir millətin milliliyinin əsəsıdır. Ona görədə hər bir gənc öz ana dilini, gərək ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin.

Prezidentin bu göstərişindən sonra orta məktəblər üçün “Azərbaycan tarixi” və “Ümumi tarix” dərslikləri tamamilə yenidən yazılaraq onlar müsəqil dövlət quruculuğumuzun əsas istiqamətlərinə uyğunlaşdırıldı. Ən vacibi isə çağdaş düvrümüzün ən mümühüm hadisələri, proseslər yeni tarix dərsliklərimizdə öz əksini tapdı. Heydər Əliyevin elmə, təhsilə verdiyi yüksək qiymətin daha bir təzahürü özünü təhsilə ayrılan maliyyə vəsaitinin həcmində göstərir. 1993-cü ildən başlayaraq təhsilin inkişafına ayrılan büdcə vəsaitinin məbləği ardıcıl olaraq artan xətt üzrə inkişaf edir. Müəllimlərin sosial müdafiəsi istiqamətində ciddi addımlar atılmışdır.

Müqayisə üçün deyək ki, ölkədə 1995-ci ildə təhsilə ayrılan vəsait ümumi dövlət büdcəsinin 17 faizini, 1997-ci ildə 20 faizini, 1998-ci ildə 22 faizini, 2001-ci ildə isə 23 faizini təşkil etmişdir. Rəqəmlərdən göründüyü kimi, ölkə iqtisadiyyatı inkişaf etdikcə, ümumi daxili məhsulun adambaşına həcmi artdqca təhsilə və onun inkişafına ayrılan təsisatların məbləğidə paralel şəkildə yüksəlmişdir. Təhsil işçilərinin sosial müdafiəsi də ölkə rəhbərinin diqqətindən kənarda qalmayıb. Son illərdə müəllimlərin və tərbiyəçilərin əmək haqları 9 dəfə artmışdır. [5,61] Proses hələ davam edir. Təhsil işçilərinin aör və olduqca faydalı əməyi bundan sonrada gərəyincə qiymətləndiriləcək və onlara dövlət qayöısı bir an diqqətindən kənarda qalmayacaq. Azərbaycan prezdenti Heydər Əliyevin imzaladığı “Təhsil sisteminin təkmilləşdirilməsi barədə” məlum fərman da nəhz bu reallıqdan irəli gələn və çox vaxtında atılmış addımdır. [6,29] Həmin fərmanda keyfiyyət məsələəsinə xüsusi yer ayrılmış, keyfiyyətə nəzarıtin müasir mexanizimin hazrlanması bir vəzifə kimi qarşıya qoyulmuşdur. 2001-2002-ci dərs ilinin “Tehsil keyfiyyət ili” kimi şərtləndirilməsidə məhz həmin zərurətdən doğmuşdur.

Ötən il bu istiqamətdə aparılmış əsaslı islahatlarla yaddaşlarda qalacaqdır. Respublika Təhsil Nazirliyi rəhbərinin proqram xarakterli müddəa və gösdərişlərini nəzərə alaraq maddi-texniki bazası zəif olan bir neçə təhsil müəssisəsində bəzi ixtisaslar üzrə kadr hazrlığını dayandırmışdır. Gəncə Elm-Təhsil Mərkəzi, San-Marino Beynalxalq Elmlər Akameyası Akamedik Mərkəzinin Azərbaycan Filialı və Naxçıvan Universtetinin fəaliyyətinə xitam verilmişdir. Bundan başqa respublikada qanunsuz, “qaçaq” yolla fəaliyyət gösdərən təhsil müəssisələrinə qarşıda prinsipial mübarizə aparılır.

1998-ci il avqustun 31-də 1970-1987-ci illərdə Azərbaycandan kənarda təhsil almış mütəxəsislərin respublika toplantısında möhtərəm prezdentimiz Heydər Əliyev mütəxəssis hazırlığı sahəsində qarşıda duran vəzifələrdən danişarkən dediyi aşağıdakı sözlər bir növ proqram səciyyəsi daşıyırdı: “Azərbaycanın ali məktəblərini, təhsil sisteminin səviyyəsini qaldırmalıyıq. Eyni zamanda dünyanın inkişaf etmiş ölkələrinin, yüksək səviyyəli universtetlərinin inistutların imkanlarından Azərbaycan gələcəyi, dəyərli kadrlar hazrlanması üçün bundan sonrada səmərəli istifadə etməliyik”.

Heydər Əliyevin ən böyük xidmətlərindən biri hərbi milli kadrların yetişdirilməsi sahəsində gösdərdiyi tarixi səylərdir. [7,11] Məlum olduğu kimi, hələ çar Rusiyası zamanında azərbaycanlıları “etibarsız” “qeyri-döyüşkən” xalq kimi hərbi xidmətə çağırmır, əvəzində onlardan vergi alınırdı. Lazm olandan-olana isə onlardan nizami ordu kimi yox, “vəhşi divizya” altında pərakəndə şəkildə istifadə olunurdu. Lakin tarixən döyüşkən, qəhrəman xalq olan azərbaycanlılar dünya hərb tarixinə neçə-neçə yenilməz, cəsur və bacarıqlı sərkərdələr. Azərbaycanlıların həqiqətən qəhrəman bir xalq olduğunu 1941-1945-ci illər müharibəsi də bir daha sübut etdi. Azərbaycanlılardan ibarət 416-cı, 77-ci divizyalar həqiqi əsgəri rəşadət gösdərərək ikinci cahan müharibəsi salnaməsinə qızıl hərflərlə daxil oldular. Azərbaycan oğullarından 120 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü, 170 mindən şox əsgər və zabit orden və medallarla təltif edildi. Lakin təəssüflər olsun ki, müharibə bitdikdən sonra

azərbaycanlılara olan münasibət əvvəlki şəklini aldı. Onları əsasən inşaat batalyonlarında xidmətə çağırı, taktiki və strateji ordu hissələində xidmət etmələrinə əngəl törədirdilər.

Belə bir münasibət millətinin, xalqinin qızğın təəssübkeşi olan Heydər Əliyevə, əlbəttə, toxunmaya bilməzdi. [8] Onun şəxsi təşəbbüsü və bilavasitə iştirakı ilə republikamızda ilk orta və ali hərbi sisdemi yaradldı. Bunadan başqa azəbaycanlı gənclər sisdemli şəkildə SSRİ-nin ali hərbi məktəblərinə göndərilməyə başladı. Düzdür, o vaxtlar Heydər Əliyevin bu sahədəki siyasətinin mahiyyətinə və əhəmiyyətinə yetərincə qiymət verilmirdi. Lakin müstəqillik əldə etdikdən sonra, Dağlıq Qarabağla bağlı hadisələr baş verdikdən sonra bu müdrik dövlət rəhbərinin nə qədər uzaqgörən olduğunu başa düşdük.

### *Ədəbiyyat*

1.Heydər Əliyev və Gəncə. Bakı, 1999
2.“Elm və həyat” jurnalı, 2012
3.Bəhruz Quliyev. Azərbaycan naminə çalışan böyük şəxsiyyət // “Azərbaycan 2020: inkişafın yeni hədəfləri”. Bakı, Azərnəşr, 2012
4.Nizami Cəfərov. Heydər Əliyevin “Azərbaycan xalqına müraciəti”ndə dil, ədəbiyyat və mədəniyyət məsələsi” // “Azərbaycan 2020: inkişafın yeni hədəfləri”. Bakı, Azərnəşr, 2012
5.Hüseynbala Mirəlimov. Mənəviyyatın ekologiyası // “Azərbaycan 2020: inkişafın yeni hədəfləri”. Bakı, Azərnəşr, 2012
6.Heydər Əliyev və Azərbaycan.Bakı, 2009
7.Əliyev H. Müstəqilliyimiz əbədidir, I – XIII kitablar. Bakı, 1996 – 2005.
8.Y.Mahmudov. "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti". Bakı, 2002.

## ВЕЛИКИЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ, КОТОРЫЙ ДУМАЕТ О НАШЕМ ОБРАЗОВАНИИ ЗАВТРА

***Гамзаева Нурлана Гариб кызы, Мамедова Севда Насиб кызы***

***Резюме***

Рассматривая завтрашнее образование, сегодняшние реалии позволяют нам с уверенностью сказать, что цель радикальных реформ, осуществляемых непосредствен но под руководством главы государства Гейдара Алиева, заключается не только в том, чтобы создавать людей с всеобъемлющими знаниями и пониманием, но и активно участвовать в создании независимого, демократического, открытого общества, Именно культивирование истинных граждан и личностей способствует дальнейшему углублению интеграции Азербайджана в мировое сообщество, потому что все являются продуктом образовательного учреждения от обычных граждан до президентов.

## GREAT LEADER HEYDAR ALIYEV WHO THINKS OF OUR EDUCATION TOMORROW

***Hamzayeva Nurlana Garib gizi, Mammadova Sevda Nasib gizi***

***Summary***

While thinking about tomorrow's education, today's realities allow us to say with certainty that the purpose of radical reforms in education directly under the leadership of Heydar Aliyev is not only to create people with a comprehensive knowledge and understanding but also to actively participate in an independent, democratic, open society building, It is the cultivation of personalities and personalities that help deepen integration of Azerbaijan into the world community, since everybody is a product of the educational institution from ordinary citizens to presidents.

***Rəyçi: Dos.S.R.Bağırova, Dos.əv. S.K.Babayeva***
***Azərbaycan tarixi kafedrasının 20 oktyabr 2022-ci il tarixli iclasın 03 saylı protokolu***
***Daxil olma tarixi 21 oktyabr 2022-ci il***